**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№361/10** **14 dekabr 2023-cü il**

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditor xidməti göstərən şəxslər qarşısında yaratdığı öhdəliklərin yerinə yetirilməsi istiqamətində auditorların fəaliyyətlərinə Azərbaycan Respublikasının Auditorlar Palatasının öz səlahiyyətləri çərçivəsində nəzarətin təşkili üzrə Metodik Göstəriş” barədə**

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədar “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar toplusu”na (2010-2020-ci illər) dəyişikliklərin edilməsi barədə” Auditorlar Palatası sədrinin 2023-cü il 03 mart tarixli 1/8 nömrəli sərəncamının 2.1-ci bəndinin icrası ilə əlaqədar Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov, B.Qasımova) və sədrin elmi-metodik məsələlər üzrə müşaviri (N.Talıbov) tərəfindən hazırlanmış “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditor xidməti göstərən şəxslər qarşısında yaratdığı öhdəliklərin yerinə yetirilməsi istiqamətində auditorların fəaliyyətlərinə Azərbaycan Respublikasının Auditorlar Palatasının öz səlahiyyətləri çərçivəsində nəzarətin təşkili üzrə Metodik Göstəriş”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditor xidməti göstərən şəxslər qarşısında yaratdığı öhdəliklərin yerinə yetirilməsi istiqamətində auditorların fəaliyyətlərinə Azərbaycan Respublikasının Auditorlar Palatasının öz səlahiyyətləri çərçivəsində nəzarətin təşkili üzrə Metodik Göstəriş” bəyənilsin (əlavə olunur).

2. Auditin sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində bu “Metodik Göstəriş”in auditor təşkilatları və sərbəst auditorlara elektron qaydada göndərilməsi təmin edilsin.

3. Auditor təşkilatlarına və sərbəst auditorlara tapşırılsın ki, xidmət göstərərkən bu “Metodik Göstəriş”i rəhbər tutsunlar.

4. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) və Palata sədrinin elmi-metodik məsələlər üzrə müşavirinə (N.Talıbov) tapşırılsın ki, bir ay müddətində bu “Metodik Göstəriş”in auditor təşkilatlarına və sərbəst auditorlara tədris edilməsi təmin edilsin.

5. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, “Metodik Göstəriş”in “Audit.Qanunvericilik və normativ sənədlər” toplusunun XI cildinə daxil edilməsini təmin etsin.

6. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2010-cu il 12 oktyabr tarixli 212/6 nömrəli qərarı ilə bəyənilmiş “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar qarşısında yaratdığı öhdəliklərin yerinə yetirilməsi istiqamətində auditorların fəaliyyətlərinə Azərbaycan Respublikasının Auditorlar Palatasının öz səlahiyyətləri çərçivəsində nəzarətin təşkili üzrə Metodik Göstəriş” qüvvədən düşmüş hesab edilsin.

7. Bu qərarın və “Metodik Göstəriş”in mətnləri Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**